## Nağdsız ödənişlər zamanı nələrə diqqət yetirilməlidir

Bütün dünyada plastik kartlardan istifadə ən əlverişli və pul vəsaitlərinin təhlükəsiz daşınması, həmçinin itirilməsindən qoruyan vasitə sayılır. Plastik kartların üstünlüklərindən birincisi pul vəsaitinin ödəniş kartında saxlanılmasının daha rahat və təhlükəsiz olmasıdır. Digər üstünlüklərə isə şəxsi büdcənin səmərəli formada planlaşdırılması, ticarət mərkəzlərində məhsul və xidmətlərin dəyərinin ödənilməsi, habelə bankomat, kommersiya banklarının filial və şöbələrində quraşdırılmış POS-terminal şəbəkəsi vasitəsi ilə nağd pul vəsaitinin əldə edilməsi, ödəniş kartının itirilməsi və ya oğurlanması zamanı emitenti vaxtında məlumatlandırdıqda pul vəsaitlərindən istifadənin qarşısının alınması, ödəniş kartı vasitəsi ilə bir cox xidmətlərin əldə edilməsi və s. daxildir.
Lakin plastik kartlardan istifadə zamanı bəzi təhlükəsizlik tələblərinə əməl edilməlidir. Mərkəzi Bankın plastik kartlar vasitəsilə əməliyyatların yerinə yetirilməsi zamanı təhlükəsizliyin gözlənilməsi ilə əlaqədar bəzi maraqlı məlumatlarını diqqətə çatdırırıq.

*Bankomat kartı qaytarmırsa, nə etməli?*
Bankomat (ATM) - plastik kartlarla iş vaxtı nağd pulun verilməsi və inkasso edilməsi üçün istifadə olunan bank avtomatlarıdır. Həmçinin, bankomat kart sahibinə onun hesabının cari vəziyyəti haqqında məlumat almağa imkan verir. Bankomat vasitəsilə bank müştərisi bank işçisi olmadan maliyyə əməliyyatlarını aparmaq imkanına malik olur. Bir çox müasir ATM-lərdə müştərinin özünü tanıtmağı üçün ya maqnit lentli ATM plastik kartlarından, ya da daxilində istifadəçinin kart nömrəsi və bəzi təhlükəsizlik məlumatları olan çipli plastik smartkartlardan istifadə olunur. Müştəri tərəfindən ehtiyat tədbiri kimi xüsusi PİN-kod daxil edilir.
Mərkəzi Bankın tövsiyəsinə görə, bankomatdan istifadə edərkən əməliyyatlar daha təhlükəsiz ərazidə yerləşən bankomatlar vasitəsilə həyata keçirilməlidir. Məsələn, bank filialı və şöbələrində, iri ticarət mərkəzlərində, mehmanxanalarda və s. Əgər bankomatın istifadəsi zamanı onun üzərində əlavə cihazlar aşkarlanarsa, həmçinin, bankomatdan istifadə zamanı düzgün işləmədiyi aşkar edilərsə, onun istifadəsindən imtina edilməli və «Kartı qaytar» düyməciyi basılaraq kart geri götürülməlidir. Bankomatdan istifadə zamanı PİN-kodu daxil edərkən digər şəxslərin görməməsi təmin edilməlidir.
Bundan əlavə, bankomatdan çıxarılan pul vəsaiti kart sahibi tərəfindən vaxtında götürülməlidir. Əks halda, pul vəsaiti 30 saniyə ərzində bankomata geri qaytarılır. Bankomatdan istifadə zamanı əldə edilən qəbz bank hesabından çıxarış ilə tutuşdurulmalı, uyğunsuzluq aşkar edildikdə emitent bank bu haqda dərhal məlumatlandırılmalıdır. Əməliyyat başa çatdıqda və ya dayandırıldıqda bankomat ödəniş kartını geri qaytarmırsa, bankomat üzərində əks olunmuş əlaqə nömrələri ilə 24 saat ərzində xidmət göstərən müvafiq xidmət mərkəzi ilə əlaqə saxlanılmalı və baş vermiş hadisə haqqında məlumat verilməlidir. Həmçinin ödəniş kartının arxa tərəfində əks olunan telefon nömrəsi vasitəsilə emitent bankla əlaqə saxlanılmalıdır.

*POS-terminallardan istifadə zamanı...*
POS-terminal vasitəsilə ödənişlərin aparılması zamanı ödəniş kartı daim nəzarət altında saxlanılmalıdır. Hesablaşmanın aparılması zamanı PİN-kodu daxil etdikdə digər şəxslərin görməməsi təmin edilməlidir. Məhsul və xidmətlərin dəyəri ödənilərkən müvafiq qəbzin verilməsi tələb edilməlidir. POS-terminal vasitəsilə PİN-kod daxil edilmədən əməliyyat həyata keçirilərkən qəbz imzalanır. Qəbzin imzalanması kart sahibinin hesabından pul vəsaitinin silinməsinə razılıqdır. Qəbz üzərində zəruri rekvizitlərin olmasına diqqət yetirilməlidir. Pərakəndə ticarət, iaşə və digər xidmət müəssisəsində həyata keçirilmiş alış geri qaytarılarkən ödənilmiş pul vəsaitinin kart hesabına bərpa edilməsi məqsədəuyğundur.

*E-ticarətdə diqqət yetirilməli digər məsələlər...*
İnternet şəbəkəsi vasitəsilə şəxsi identifikasiya məlumatları, bank hesabı və ya kart haqqında məlumatlar (məsələn, PİN-kod, kredit limiti və s.) lüzumsuz olaraq açıqlanmamalıdır. Təqdim etdiyi xidmətlər baxımından artıq tanınmış və təhlükəsiz hesab olunan təşkilatların internet səhifələrindən istifadə edilməlidir. Xidmətlərindən istifadə olunan internet səhifələrinin həqiqiliyindən əmin

olunmalıdır, çünki fırıldaqçılıq əməllərinin həyata keçirilməsi üçün oxşar səhifələr yaradıla bilər. Ödəniş kartı və ya şəxsi identifikasiya haqqında məlumatların açıqlanmasını tələb edən e-mail və zənglərə ehtiyatla yanaşılmalı, bu cür məktublarda qeyd edilmiş veb səhifələrə daxil olunmamalıdır. Şəxsi identifikasiya məlumatlarının, bank hesabı və ya kart ilə bağlı məlumatların təhlükəsizliyinin təmin edilməsi məqsədilə əməliyyatların şəxsi kompüter vasitəsilə həyata keçirilməsi məqsədəuyğundur. Əgər internet şəbəkəsi ilə əməliyyatlar digər kompüter vasitəsilə həyata keçirilibsə, əməliyyat başa çatdıqdan sonra şəxsi identifikasiya məlumatları, bank hesabı və ya ödəniş kartı ilə bağlı məlumatların kompüterin yaddaşında qalmadığına əmin olunmalıdır. Səlahiyyətsiz əməliyyatlar nəticəsində bank hesabı üzrə pul vəsaitlərinin azalmasında şübhə yarandığı zaman emitent dərhal məlumatlandırılmalıdır.

**Aytən NƏBİYEVA**